**UOT:80.**

# SEQMENTASİYA VƏ NİTQİN MEXANİZMİ

***Rzayeva Zümrüd Elyar qızı***
***Gəncə Dövlət Universiteti***
***zuma_777@mail.ru***

**Xülasə:** *Məqalədə seqmentasiya prosesi və nitq mexanizmi əlaqəli şəkildə təhlil edilir. Nitqin yaranmasının, nitqin seqmentasiyaya uğramasının koqnitiv cəhətdən izah edilməsi məqalənin elmi yeniliyini və tədqiqat üçün seçilmiş mövzunun aktuallığını şərtləndirir. Məqalədə elmi araşdırma zamanı təsviri metoddan istifadə edilib. Bu tədqiqatda qarşıda duran əsas məqsəd artikulyasiya prosesinin mərhələlərinin nəzərdən keçirilərək elmi cəhətdən ətraflı izah etmək, seqmentasiya zamanı dildə müşahidə edilən seqmentativ və superseqmentativ vahidlərin və seqmentasiya prosesinin əsas vasitələrini təhlil etməkdir. Bu məqalə çərçivəsində aparılan araşdırmadan belə bir qənaətə gəlinir ki, nitqin mexanizmi dedikdə sadəcə səsli nitq deyil, onun ən başlanğıc nöqtəsi olan insan təfəkküründə nitqin yaranışı ilə bağlı olan prosesləri də buraya aid etmək lazımdır. Məqalədə təqdim edilən materiallar və gəlininən nəticələr fonetika sahəsində aparılacaq tədqiqatlar üçün xüsusi əhəmiyyət kəsb edə bilər.*

**Açar sözlər:** seqmentasiya, seqment, superseqment, artikulyasiya, nitq, nitq mexanizmi.
**Ключевые слова:** сегментация, сегмент, суперсегментные единицы, артикуляция, речь, речевой механизм.
**Key words:** segmentation, segment, suprasegmental units, articulation, speech, speech mechanism.

Dilçilik elmində son illər aparılan araşdırmalarda seqmentasiyaya fərqli yanaşmalar müşahidə edilir. Məsələn, V.G. Subiç öz elmi araşdırmasında təbii, süni, düzəltmə tipli seqmentasiyalardan bəhs edir və qeyd edir ki, "təbii" seqmentasiya ətraf aləmdə mövcud olan bu və ya digər obyektlərin sayımından, hesabından ibarətdir. Lakin müəllif onu da qeyd edir ki, ətraf aləmdə olan bütün şeylərin heç də hamısı hesaba uymur. Bununla yanaşı fərqli dillərdə kvantifikasiyaya (yəni seqmentasiyaya) fərqli elementlər məruz qala bilər. Məsələn, ingilis dilində "odun – ağac" (wood - a tree) anlayışlarının süni və təbii seqmentasiyası dəqiq şəkildə hiss edilir. [9, s. 59]. Azərbaycan dilində isə buna ekvivalent olaraq "şüşə" və "stəkan" sözlərinin dəqiq şəkildə təbii və süni seqmentasiyasının olduğunu da deyə bilərik. Lakin ingilis dilində hər iki anlayış bir leksik vahidlə – "glass" sözü ilə ifadə edilir.

Süni seqmentasiyanı isə o, xüsusiləşmiş və xüsusiləşmiş olmayan olmaqla iki tipə ayırır. Xüsusiləşmiş süni seqmentasiyaya misal olaraq zaman, çəki, sahə, həcm, məsafə ölçüsü bildirən sözləri nümunə gətirir və qeyd edir ki, xüsusiləşməmiş süni seqmentasiyanın vahidləri isə bunların dəqiqləşdirilməsinə xidmət edən leksik vahidlərdir [9, s. 59]. Göründüyü kimi, müəllif seqmentasiyanı sırf semantik səviyyədə nəzərdən keçirir və hətta düzəltmə seqmentasiya terminindən belə istifadə edərək, buraya qeyd edilən ölçü vahidlərinin ifadə edilməsi üçün dildə yaradılmış söz birləşmələri (at gücü və s.), mürəkkəb sözlər və s.ni aid edir [9, s. 60-71].

Ümumiyyətlə, artıq qeyd etdiyimiz kimi, nitqi seqmentasiya problemi son onilliklərdə müasir dilçiliyin diqqət mərkəzində olmasına baxmayaraq, bu məsələ haqqında hələ də yekdil fikir mövcud deyil. Bu, əslində, qeyd edilən problemin mürəkkəb və çoxplanlı olması, həm də nitq fəaliyyətinin nəzəriyyəsinin yenicə işlənməyə başlanması ilə bağlıdır. Buna baxmayaraq, linqvistik hadisələrin təhlil edilməsində müşahidə edilən fərqli müasir yanaşmalar, həm də onların fonetik-fonoloji cəhətdən təsvir edilməsi xüsusi maraq doğurur və nitqin yaranması, nitqin yaranması prosesinin mexanizmi probleminə ümumi yanaşma baxımından xüsusi aktuallıq kəsb edir.

Nitqi fəaliyyət nəzəriyyəsinin qeyri-kafi inkişafı və ən başlıcası, nitqin yaranması prosesi və onun struktur vahidlərinin interpretasiyası zamanı müşahidə edilən ziddiyyətlər hər hansı konkret bir dilin materialları əsasında bu məsələnin öz həllini tapmasında, onun fonetik-fonoloji sisteminin müəyyən edilməsində çətinlik yaradır.

Danışıq və dərketmənin real proseslərinin modelləşdirilməsini nəzərdə tutan müasir fonetik təsvir istənilən dilin fonetik sistemini prinsipial olaraq fərqli şəkildə təsvir edilməsini, insanın nitq fəaliyyəti modelində fonetik komponentin formalaşması məsələsinin həllini nəzərdə tutur. Nitqin daxili mexanizminin təsviri və danışanın nə etdiyini, nitqin yaranması zamanı subyektin hansı strategiya və üsullardan istifadə etməsini adekvat şəkildə dərk edilməsinin mahiyyətcə təsvir edən prosesin aspektləri müasir elmi ədəbiyyatlarda koqnitiv cəhətlər adlandırılır. Koqnitiv yanaşma baxımından nitqin yaranması onun formalaşması mərhələləri ilə (nitqdən əvvəlki və nitqdən sonrakı), yəni nitqlə bağlı fikrin yaranması və onun daha sonra cümlələr şəklində nitqdə formalaşması şəklində nəzərdən keçirir.

Beləliklə, nitqin yaranması prosesi, əslində, eyni anda həm koqnitiv (verballığa qədər olan mərhələ), həm də daim bir-biri ilə qarşılıqlı əlaqədə olan və cümlə (fikrin verballaşması) tərkibinə çevrilən dil vahidlərini hərəkətə gətirən nitqi təfəkkür (речемыслительный) prosesidir [2, s. 7–8]. Bununla əlaqədar olaraq səslənən nitqin seqmentasiyası xüsusi maraq doğurur ki, bu da nitq obyektini təşkil edən vahidlərini və onların bir-biri ilə əlaqəsinin spesifikasını müəyyən edir. Bununla belə səslənən obyektin optimal seqmentasiyası zamanı nitqi seqmentlərin variativliyi və əsas əlamətləri nəzərə alınmalıdır. Səslənən sözün (və ya mətnin) seqmentasiyası ardıcıllıqla, yəni seqmentlərin düz xətt boyunca bir-birini izləməsi ilə deyil, həm də qarışıq formada (Plotkin bu formanı kinakemlər adlandırır), lakin eyni anda baş verir.

Nitq axının seqmentasiyası ilə bağlı aparılan tədqiqatlar zamanı "şərti olaraq, üzvlənən nitqi seqmqntlərin xüsusiyyətlərindən asılı olan mikro- və makroseqmqentasiyanı fərqləndirmək lazımdır" [7, s. 10]. R.K.Potapovanın fikrincə, mikroseqmentlərə intrasəsli seqmentlər (ayrı-ayrı parametrik hadisələr, səslərarası keçid prosesləri, eksplozisiya, aspirasiya və s.), səsli, intrasəsli (səs birləşmələri) və heca seqmentlərini aid etmək olar. Makroseqmentasiyanın əsas obyektlərinə isə ritmik qruplar, frazalar, frazafövqlü vahidlər, fonoabzaslar, mətnləri aid etmək olar. Mikro və makro seqmentasiya obyektləri arasındakı mövqedə isə fonetik sözlər dayanır. Bu halda isə media yəni, orta seqmentasiyadan bəhs etmək olar.

R.K.Potapovanın qeyd etdiyi kimi, "təklif edilən fərqləndirmə şərti olaraq müəyyən ediləns eqmentlərin inventarlarının ardıcıllığını müəyyən etməyə, onları danışan, dinləyən və müşahidə edən (təçrübəni həyata keçirən) mövqeyindən fərqləndirməyə şərait yaradır" [7, s. 10]. Bu cür terminoloji dəqiqləşmə tam olaraq mıntiqli və yerindədir. Belə ki, məlum olduğu üzrə ənənəvi terminlərdə "seqmentasiyalı element" anlayışı nominativ mənada işlənir. Onun tərkib hissələri kimi isə "seqment və superseqment" arasında yerləşən elementlər izah edilir.

Azərbaycan dilində nitq siqnalı seqmentlərinin mikro, media və makroseqmentasiya terminləri ilə ayrı-ayrı seqmentlər şəklində fərqləndirilərək müəyyən edilməsi nitqin seqmentasiya prosesini daha detallı şəkildə nəzərdən keçirməyə geniş imkanlar aça bilər. İlk növbədə bunun üçün mikroseqmentləri lazımi şəkildə müəyyən edərək səciyyələndirmək lazımdır. Lakin bir məqam da diqqətdən yayınmamalıdır ki, hər hansı bir konkret dildə bu və digər xüsusiyyətləri ilə seçiləns eqmnetlərin hər bir dil üçün özəl ola biləcək xüsusiyyətləri və xarakterisitikası ola bilər.

Nitq axının seqmentasiyası bu məhrələlərdən ibarətdir: heca – fraza (ifadə) –frazafövqlü elementlər vahidlər. Nitq axını, artıq məlum olduğu kimi, heca seqmentasiyası ilə başlayır. Heca bu məqamda parçalanmayann üzv hesab edilir. Lakin bu, hecanın tərkib hissələrinə parçalana bilməməsi anlamına gəlmir. Belə ki, heca da öz növbəsində səslərə ayrıla bilir.

Lakin parçalanmanı səslər səviyyəsinə endirdikdə səs axınını pozmuş olururq. Bu baxımdan seqmentasiyanın ən kiçik, parçalanmayan vahidi hecadır.

Bütün işarəvi vahidlərin (morfem, söz, ifadə) səs donu – səs axının sahələridir. Məhz bu sahələr seqmentasiyaya və seqmentativ amilləin nəzərə alınması ilə modullaşmaya məruz qalır. Yəni, məzmun planının ifadə planı ilə vəhdətini ortaya qoyur. Fonoloji səviyyədə səs axını sırf fonoloji vahidlərlə, semantikanın iştirakı olmadan təşkil edilir. Nitq axının elementar şəkildə formalaşması (modullaşması) isə xüsusi fonoloji vahid olan heca hesabına həyata keçirilir.

Heca fonetik-fonoloji vahiddir və nitqi hərəkətə gətirərək idarə edilməsi baxımından ən kiçik səs zənciridir. Bu məqamda səs zənciri dedikdə, səslərin kortəbii ardıcıllığı deyil, vahid artikulyasiyalı kompleks nəzərdə tutulur ki, bunun da daxilində artuklyasiyanın (səslənmə ahənginin) müvafiq qanunauyğunluqları mövcud olur. Nitqi zəncirdə heca nitq axının ən kiçik səsli parçasıdır.

Lakin Sorokin tərəfindən aparılan və seqmentlərin həmahəngliyinə həsr edilən təcrübi tədqiqatların ümumi şərhinə nəzər saldıqda, görürük ki, həmahənglik proseslərinin fəaliyyət sahəsi heca çərçivəsi ilə məhdudlaşmır. V.B.Kuznetsovun qeyd etdiyi kimi, "hecanın müəyyən edilməsində yalnız həmahənglik amilinə istinad etmək müəyyən çətinliklər yaradır" [3, s. 84] .

Bu istiqamətdə öz təcrübi tədqiqatlarını aparan V.B.Kuznetsov belə bir qənaətə gəlir ki, yumşaq samitin artikulyasiyası "ənənəvi" strategiyalarda qeyd edildiyindən daha əəvvəl başlayır; yumşaq samitin tamamlayıcı artikulyasiyası onun əsas artikulyasiyasını qabaqlayır; bu ümumi sxemin konkret şəkildə həyata keçməsi bu samitin yanında işlənən saitin səciyyəsindən, onun vurğusundan və samitdən əvvəl və ya sonra gəlməsindən birbaşa asılıdır [3, s. 93].

Müəllif qeyd edir ki, hər bir dildə sözlərin seqmentasiyası xüsusi üsulla həyata keçirilir, məsələn rus dilində seqmentasiyanın əsas amili sözün vurğusudur. Beləliklə, nitq proseslərini modelləşdirilməsi necə baş verir, semantik informasiyanın səsləndirilməsi "mexanizmi" hansı şəkildədir, mürəkkəb artikulyasiya aparatını səslərin deylişi və dərk edilməsi ilə ümumilikdə hərəkətə gətirən səbəb, amil nədir? kimi suallara nitqin yaranması mexanizminin tədiqiq baxımından hələ də öz həllini və cavabını dəqiq tapmayan məsələlər sırasında sadalanır.

Ümumiyyətlə, elmi ədəbiyyatda nitq mexanizmi ilə bağlı olan müddəaları ardıcıllıqla aşağıdakı kimi sadalaya bilərik:

1) dilin səs tərkibi yalnız böş səslədən ibarət deyil;

2) artikulyasiya məhsulu kimi səsin əsas funksiyası nitq siqnalını insandan insana ötürməkdir;

3) bu siqnalın trayektoriyası ağızda başlasa da, dinləyicinin qulağında deyil, bu siqnalı qulaq vasitəsilə qəbul edib emal edən beyində bitir;

4) səs siqnalının qət etdiyi yol üç mərhələdən ibarətdir: a) beyindən artikulyasiya aparatına; б) oradan eşitmə orqanına; в) oradan da beyinə;

5) birinci mərhələdə siqnal sinir impulslarından, ikincidə səslərdən, üçüncü mərhələdə isə yenidən sinir impulslarından ibarət olur;

6) söyləmin dil planına siqnalın reallaşmasının səslər və sinir impulsları kimi hər iki substantları aiddir;

7) həm səslər, həm də sinir impulsları bərabərhüquqlu olsalıar da, bir-birinə tabe deyillər;

8) bu ipostasların hər biri səsin yaranmasında və dərk edilməsində müstəqil vasitədir;

9) bu prosesdə ilkin olan sinir impulsudur, səs ondan sonra yaranır;

10) söyləmin nitq planının impulslaşması substansiyasının universal seqmentasiyası "hərəkət kontingenti" («контингент движений») adlanan neçə substabnt impulsun vahid blokda qruplaşmasından ibarətdir;

11) belə kontingentlər vahid komanda (əmr) ilə fəaliyyətə başlayır ki, verilən əmr də öz növbəsində avtomatik olaraq ayrı-ayrı olan "kontingent" hərəkətlərinin, avtomatik altkomandaların bütöv zəncirini aktivləşdirir [1; 5; 6].

Dilin fonetik sisteminin ayrı-ayrı seqmentlərinin artukilyativ-akustik və funksional xarakteristikasının, onların bir-birinə uyğunluq qanunauyğunluqlarının, hecanın strukturlaşması xüsusiyyətlərinin yuxarıda verilən təsviri əsasında onları səsyaradn müəyyən sistemə söz səviyyəsində daxil etmək olar, belə ki, danışanın əsas məqsədi səs və hecalar deyil, işarəvi vahidlərlə ifadə edilir.

Koqnitiv yanaşma çərçivəsində nitq prosesi danışanın beynində fikrin yaranışından (intensiya, niyyət), onun müəyyən mənalı hər hansı bir məlumatı ötürmək istəyindən başlayır. Sonrakı mərhələdə bu düşüncə müəyyən freymlərə, senarilərə çevrilir ki, bunlar da "nəticə obrazı" ilə sonuçlanır. Yəni danışan fizioloji nitqini işə salmadan öncə beynində artıq fonem səviyyəsində formalaşan hazır obraza malik olur ki, məhz bu obrazın əsasında da səsli nitqdə səslərin ardıcıl düzümü baş verir. Yəni, beyində artıq mövcud olan obraz dinləyici üçün səsli şəklə çevrilir. Verballaşmayaqədərki nitqin yaranış prosesi universaldır və beynin ixtiyarındadır. "Nəticə obrazı"na əsaslanan beyin sonrakı mərhələdə səsyaradan orqanlara müvafiq əmrlər verir.

Sxematik olaraq nitqin yaranması və nitqin dərk edilməsi prosesini koqnitiv cəhətdən bütün mərhələlərini təsvir etməyə cəhd e tsək, o zaman onu bu şəkildə təqdim edə bilərik: niyyətin – freymlərin yaranması, senarinin – nəticə obrazının formalaşması, danışıq aparatına komandanın ötürülməsi, nitq siqnalının yaranması, nitqin fiziologiyasının fəaliyyətə başlaması, səslənmə, səslənmiş "nəticə obrazı", dinləyici tərəfindən dərk etmə. Beləliklə, nitq siqnalını ötürən və alan hər iki halda beyindir: beyindən artikulyasiya orqanlarına, oradan isə dinləyicinin beyninə.

Danışanın düşüncələrinin verballaşması, "materiallaşması" isə artıq səslənmə mexanizminin, yəni nitqin fiziologiyasının öhdəliyinə düşür və hər bir dil və onun fonetik-fonoloji sistemi bunu özünəməxsus şəkildə həyata keçirir. Obrazlı şəkildə ifadə etsək, hər bir dil yaratdığı kərpicləri yalnız özünəməxsus olan paradiqmatik və sintaqmatik silsiləyə, əlaqələrə uyğun olaraq düzür.

Nitqin yaranması prosesinin özü bilavasitə ondan başlayır ki, nitq siqnalı, yəni başlanğıc komandası bütün danışıq aparatını hərəkətə gətirir. Bu prosesdə birinci mərhələ sinir-əzələ impulsasiyasıdır: hava axının hərəkətə başlaması, yəni səs telləri prosesə qoşulmazdan əvvəl ağız boşluğunun lazımı rezanator vəziyyət alması, hava axını üçü maneələrin (əgər lazımdırsa) qurulmasından ibarətdir. Növbəti mərəhələdə isə səsqəbul edən proses sinir-əzələ impulsasiyası vasitəsilə işə düşür. Beləliklə, bütün bunlar nitq siqnalının yaranması prosesini ümumilikdə əhatə edir.

Səsin əsas funksiyası siqnal ötürməkdir. Səs yalnız artikulyativ hərəkətlərin özünəməxsusluğu ilə ixrac edilə və bu hərəkətlərin perseptiv korelyatları (əks proseslə) ilə qəbul edilə bilər.

Ənənəvi terminlərdə bu özünəməxsusluğun komponentləri "fərqli əlamətlər" adlandırılır. V. Ya. Plotkinanın fikrinə görə, bu hər iki hissəsində (həm bieinci, həm də növbəti mərhələdə) müstəqil fonoloji vahid kimi müəyyən edilən dil vahidinin statusuna uyğun deyil [6, s. 17].

Bu baxımdan "kinakema" termini təklif edilir. Bu termin artıq qeyd etdiyimiz kimi, XX əsrin 30-cu illərində Boduen de Kurtene tərəfindən irəli sürülüb. Bu fikirlə razılaşmamaq olmur. Lakin haqqında bəhs etdiyimiz tədqiqat əsərində "fərqli (diferensial) əlamət" termini paralel işlənsə də, müəllif özü də etiraf edir ki, bu iki termin, əslində, bir-birindən əsaslı şəkildə fərqlidir. Lakin hər ikisinin obyekti eynidir: artikulyasiya orqanlarının sinir-əzələ impulsları. V. Ya Plotkinanın qeyd edilən əsərindən də göründüyü kimi, səsin yaranma

mexanizminin təsvirində sinir-əzələ impulsları ilkin, səsin özü isə növbəti baş verən hadisə kimi qeyd edilir. Lakin, reallıqda hər iki fakt eynizamanlıdır.

Bu prosesdə diqqəti daha bir məqam çəkir ki, bu da universal substansiyaların seqmentasiyası zamanı söyləmin nitq fonunda bloklu impulsasiya prinsipidir. Bunun əsas mahiyyəti ondan ibarətdir ki, bir neçə substant impulslar bir “hərəkət kontingent” adlanan blokda cəmlənir. Bu blok bir komanda əsasında fəaliyyətə başlayır. Bloka verilən komanda da isə öz növbəsində “hərəkət kontingenti” ilə əlaqəli olan bütün digər “kontingentləri” avtomatik olaraq zəncirvari işə salır.

Səs axınında iki dil səviyyəsi müşahidə edilir – düzxətli (seqmentativ) və düzxətli olmayan (superseqmentativ). Bunlar birgə müşahidə edilsələr də, superseqment vahidlər “sanki düzxətli kəsimlərin üzərinə düşür: düzxətli parçalar xüsusiləşir, ayrıca ifadə edilir, superseqment olanlar isə yalnız onlarla birgə mövcuddur” [5, s. 15]. Superseqment vasitələrə seqmentativ səsləri üstələyən hecadan mətnə qədər bütün vahidlər aid edilir.

Superseqment səviyyədə səslənən nitqin səs axınını təşkil edən seqmentlərlə yanaşı prosodik vasitələr də çıxış edir. Bunlara ilk növbədə vurğu və onun bütün növləri aid edilir.

Hər bir dildə sözün fonetik təşkilinə ehtiyac var və hər bir dil (və ya dil qrupları) bunu özünəməxsus şəkildə həyata keçirir. Azərbaycan dilində söz vurğusuna malik digər dillərdə də olduğu kimi sözlərin fonetik təşkilinin əsas vasitəsi söz vurğusudur. Söz vurğusunun əsas funksiyası sözün tamlığını və müstəqilliyini bildirməkdir. Vurğusu olmayan səslər yığını söz ola bilməz.

### *Ədəbiyyat*

1. Бодуэн де Куртене И. А. Избранные труды по языкознанию. М.: Изд-во АН СССР, 1963. 1. Т. 1. 142 с.
2. Кубрякова Е. С. Модели порождения речи и главные отличительные особенности речепорождающего процесса // Человеческий фактор в языке. Язык и порождение речи. М.: Наука, 1992. С. 4–20.
3. Кузнецов В. Б. Эффекты коартикуляции при переходе от гласного к мягкому согласному в З. русской речи // Проблемы фонетики. М.: Наука, 1995. С. 84–99.
4. Лингвистический энциклопедический словарь. М.: Советская энциклопедия, 1990. 686 с.4.
5. Матусевич М. И. Современный русский язык. Фонетика. М.: Просвещение, 1976. 288
6. Плоткин В. Я. Фонологические кванты. Новосибирск: Наука, 1993. 180 с.
7. Потапова Р. Г. Теоретические и прикладные аспекты речевой сегментологии // Проблемы фонетики. М.: Институт русского языка РАН, 1995. С. 7–20.
8. Сорокин В. Н. Теория речеобразования. М.: Радио и связь, 1995. 128 с.
9.Субич В.Г. Функциональный анализ лексико-семантического аспекта количественности в английском, японском и русском языках. дис. на с.уч. степ. к. филол. н. Казань, 2012. 240 с.

## СЕГМЕНТАЦИИ И РЕЧЕВОЙ МЕХАНИЗМ

***Рзаева Зумруд Эльяр***

### *Резюме*

В статье анализируется процесс сегментации и речевой механизм согласованным образом. Когнитивное объяснение формирования речи и сегментации речи обуславливает научную новизну статьи и актуальность темы, выбранной для исследования. В статье во время научных исследованиях использован описательный метод. Основная цель данного исследования - прояснить этапы процесса артикуляции и объяснить в научной манере, проанализировать основные средства и процесс сегментации и суперсегментных единиц, наблюдаемых в языке во время сегментации. Из исследования, проведенного в этой статье, делается вывод, что механизм речи - это

не только речь, но и процессы, связанные с формированием речи в сознании человека, которая является ее начальной точкой.

Материалы, представленные в статье, и представленные результаты могут иметь особое значение для фонетических исследований.

**THE SEGMENTATION PROCESS AND THE SPEECH MECHANISM**

***Rzayeva Zumrud Elyar***

***Summary***

The article analyzes the segmentation process and the speech mechanism in a consistent manner.

The cognitive explanation of the formation of speech and speech segmentation determines the scientific novelty of the article and the relevance of the topic chosen for the study. During this scientific research descriptive method is used. The main objective of this study is to clarify the steps of the process and explain in a scientific manner, to analyze the main means and process of segmentation and super-segment units observed in the language over the time of segmentation.

From the study conducted in this article, it is concluded that the mechanism of speech is not only speech, but also the processes associated with the formation of speech in the human mind, which is its starting point. The materials and results presented in the article may be of particular importance for phonetic research.

***Rəyçi: dosent Mehdi Rəhimov***
***Qrammatika və ingilis dilinin tədrisi kafedrasının 16 fevral 2021-ci il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olma tarixi 18 fevral 2021-ci il***

**UOT:81.**

**POEZİYADA ƏDƏBİ TƏLƏFFÜZÜN, ŞİVƏ TRANSKRİPSİYASININ LİNQVİSTİK TƏHLİLİ**

***Salahova Yeganə Həsən qızı***
***Gəncə Dövlət Universitetinin doktorantı***
***Yegane.gdu@gmail.com***

**Xülasə:** *Poeziyada ədəbi tələffüzün, şivə transkripsiyasından istifadə mühüm poetik mahiyyət kəsb edən göstəricilərdəndir. Ədəbi dilin şivə transkripsiyasından hər hansı bir söz sənətkarı istifadə etməklə poeziya dilini xalq danışıq dilinə daha da yaxınlaşdırır, poeziya dili olduğu sadə, adi görünür və bu sadəlik, adilikdə bədii həqiqətlər təbii görünür, dərin poetik səmimiyyət oxucunu valeh edir və şeir mətni oxucunun yaddaşına asanlıqla həkk olunur. Ədəbi tələffüzün, şivə transkripsiyası bəzi söz sənətkarlarının bədii üslubunda az, bəzilərində isə intensiv bir şəkildə müşahidə olunur ki, bu da şeir mətninin birbaşa bədii strukturu, linqvistik tərkibi ilə əlaqədardır, söz sənətkarının çoxlu ünsiyyət dilinə münasibətindən irəli gəlir. Dilin üslubi laylarına fəal və yaradıcı yanaşma söz sənətkarının profesionallığını nümayiş etdirən amillərdəndir və dil faktlarını ədəbi tələffüzün transkripsiyası baxımından nəzərdən keçirməklə, məqalədə belə bir fikir sübuta yetirilir ki, gerçəkliyin bədii keyfiyyətlərlə aşılanması, poetik intonasiyanın ideya-bədii istiqaməti, onların bədii qayə ilə bağlılığı xəlqi deyim qaydalarına söykənir.*

**Açar sözlər:** ədəbi dil, şivə, transkripsiya, poeziya
**Keywords**: literary language, dialect, transcription, poetry
**Ключевые слова**: литературный язык, диалект, транскрипция, поэзия